


**YENİ AZƏRBAYCAN PARTİYASININ TƏBLİĞAT-TƏŞVİQAT KAMPANİYASI UĞURLA DAVAM EDİR**

# Səbail rayonunda seçicilərlə görüşlər davam edir






11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Badamdar qəsəbəsində seçicilərlə görüş keçirib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahı Səbail rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Şəmsəddin Hacıyev seçicilərə cənab İlham Əliyevin seçki platforması haqqında ətraflı məlumat verib. Ş.Hacıyev son 15 ildə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sistemli siyasi-iqtisadi islahatlar nəticəsində əldə olunan tarixi nailiyyətlər haqqında geniş danışıb: “Bütün Azərbaycan cəmiyyəti kimi, Səbail rayonu seçicilərinin də yekdil seçimi ümumxalq məhəbbəti qazanmış cənab İlham Əliyevdir. Ölkə başçısının ötən dövr ərzindəki fəaliyyəti nəticəsində Azərbaycan nəinki regionun, bütövlükdə dünyanın ən sayılıb-seçilən ölkələrindən birinə çevrilib. Ölkəmizin iqtisadi və hərbi qüdrəti daha da artıb. Bu gün Azərbaycan Cənubi Qafqazda müstəqil siyasət həyata keçirən yeganə dövlətdir. Təbii ki, bu düşünülmüş siyasət ulu öndər Heydər Əliyevin siyasi kursuna əsaslanır. Dünyada gedən mürəkkəb, ziddiyyətli proseslər fonunda Azərbaycanda sabitlik hökm sürür. Ölkə başçısı tərəfindən gələcək üçün böyük planlar və Azərbaycan xalqının milli mənafelərinə bilavasitə xidmət edən strateji hədəflər müəyyənləşdirilib. YAP-ın vahid namizədi olan cənab İlham Əliyevin ən ali məqsədi mövcud olan ictimai-siyasi sabitliyin qorunması, Azərbaycanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələr sırasına yüksəldilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, əhalinin rifahının daha da yüksəlməsinə nail olmaqdan ibarətdir. Odur ki, biz Prezidentimizi, onun siyasətini dəstəkləməklə hər bir Azərbaycan vətəndaşının firavan həyatına, Azərbaycanın dinamik inkişafına səs verəcəyik”.

Daha sonra çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Əvəz Bayramov, YAP Səbail rayon təşkilatının sədr müavini Əhliman Qarayev cənab İlham Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının yüksəldilməsi istiqamətindəki misilsiz xidmətlərindən, ölkə başçısının həyata keçirdiyi sosial-iqtisadi strategiya nəticəsində Azərbaycanın dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasında olmasından danışaraq qeyd ediblər ki, məhz bu möhtəşəm uğurların davam etməsi üçün xalqımız aprelin 11-də keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevi dəstəkləyəcəkdir.

Sonda çıxış edən YAP Səbail rayon təşkilatının gənc fəalları Məhərrəm Məhərrəmli və Bəyim Nəbiyeva bildiriblər ki, hazırda Azərbaycanda yüksək intellektli, bacarıqlı, milli mənəvi dəyərlərimizə sadiq vətənpərvər gənclik formalaşıb. Qeyd ediblər ki, Azərbaycan gəncləri bu gün yüksək səviyyədə təhsil almalı, ixtisaslı mütəxəssis kimi yetişməli və ona əmanət olunan şanlı Azərbaycan bayrağını daim ucalarda dalğalandırmalıdır. Əminik ki, Səbail gəncləri hamı bir nəfər kimi 11 aprel günü seçki məntəqələrinə gələrək özlərinin vətəndaşlıq mövqeyini və siyasi iradəsini nümayiş etdirəcək və qüdrətli Azərbaycanın işıqlı gələcəyi üçün cənab İlham Əliyevə səs verəcəklər.

**Cavid Əkbərov,**
***“İki sahil”***

# Ölkəmizin gücü mövcud ictimai-siyasi sabitlikdədir




Aprelin 7-də YAP İmişli rayon təşkilatı təbliğat-təşviqat kampaniyası çərçivəsində təşkilatın inzibati binasının akt zalında ilk dəfə səs verəcək gənclərlə görüş keçirib.

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev bildirib ki, Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Ona görə də Azərbaycan gəncləri Prezident İlham Əliyevin yenidən ölkəmizə rəhbərlik etməsinə öz karyeralarını yüksək səviyyədə qurmaq şansı kimi baxırlar.

YAP İmişli rayon təşkilatının aparat rəhbəri İlham Əsgərov bildirib ki, son 15 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. Dövlət başçısının Sərəncamı ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən Azərbaycan gəncliyi Dövlət Proqramı təsdiq edilərək həyata keçirildi. Eləcə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin “Gənclər ili” elan edilməsi və s. ölkəmizdə gəncliyə diqqət və qayğının davamlı siyasət olduğunu bir daha təsdiqlədi.




Təbliğat-təşviqat qrupunun üzvləri Nazim Əzimov, “Xalq sözü” qəzetinin baş redaktoru Səməd İsmayılov, Ceyhun Əbdülov bildiriblər ki, cəmiyyətimizin aparıcı təbəqəsi olan Azərbaycan gəncliyi də hər zaman seçkilərdə aktiv iştirak edib. 11 apreldə keçiriləcək prezident seçkiləri də bu baxımdan istisna təşkil etmir. İnanırıq ki, bu seçkilərdə gənclərimiz mövcud siyasətin uğurlu davamına səs verəcəklər. Çünki həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafı üçün böyük üfüqlər açır.

**Elçin Zaman,**
***“İki sahil”***